A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

S Ə R Ə N C A M I

113a  16 May 2022-ci il

**Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya keçiriləcək seçkinin təşkili məqsədilə Komissiyanın yaradılması haqqında**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar hazırlanmış "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 171 saylı 30 may 2014-cü il tarixli Qərarı ilə təsdiq edilmiş İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamənin 2.3-cü və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndlərini rəhbər tutaraq

**q ə r a r a   a l ı r a m:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya keçiriləcək seçkinin təşkili məqsədilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki komissiyasının tərkibi yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri**

| | |
|---|---|
| - Sevinc Süleymanova | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |
| | **Komissiyanın üzvləri** |
| - Nicat Allahverdiyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| - Sabir Əliyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| - Hümbət Hüseynov | M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri |
| - Tünzalə Cavadova | "Qadın və Gənc Ailələrin Sosial İnkişafı" İctimai Birliyinin sədri |
| - Almaz Hacıyeva | Binəqədi Rayon Ağbirçəklər Şurasının sədri |

| | | |
|---|---|---|
| - | Yetər Aboyeva | "Şəhid Anaları" Xeyriyyə Mərkəzinin Binəqədi rayon şöbəsinin sədri |
| - | Fərhad Əliyev | "Mərhəmət" Kimsəsizlərə Yardım İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri |
| - | Fizuli Həsənov | "Milli Qəhrəmanları Tanıtma" İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri |

3. Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın tərkibi 15 nəfər müəyyən edilsin.

4. Seçki komissiyasına tapşırılsın ki, Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (www.binegedi-ih.gov.az), Rayon İcra Hakimiyyətinin məlumat lövhəsində və digər müvafiq yerlərdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Komissiyaya tapşırılsın ki, Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 20 gün müddətinə başa çatdırsın və seçkilərin "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

6. Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

*Əsli ilə düzdür:*

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi** **Badam Cəfərova**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti • • SƏNƏDLƏR ÜÇÜN